

ELMİ-METODİK MƏRKƏZ

XALQ YARADICILIĞI

ƏLİL İFAÇILARIN KONSERTİ

FEYRUZ BAĞIROV

ELMİ-METODİK MƏRKƏZ

XALQ YARADICILIĞI

Əlil ifaçıların konserti

Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud insanların, şəhid ailələrinin, ahılların sosial müdafiəsinin gücləndirilməsinə də ciddi diqqət yetirilir və onların sağlamlığının bərpası məqsədilə ardıcıl tədbirlər görülür. Onların fərdi yaşayış evləri, nəqliyyat vasitələri ilə təmin edilməsi, sosial xidmətləringöstərilməsi, müalicə və istirahətlərinin təşkili həyata keçirilir.

Belə insanların asudə vaxtlarının səmərəli keçirilməsi, xüsusi istedada malik olanların aşkara çıxarılması məqsədilə idman yarışları, bədii yaradıcılıq sərgiləri və sairə təşkil edilir.

Son illərdə Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı tədbirləri geniş təbliğ olunmaqdadır. Ayrı-ayrı rayonlar üzrə klub və mədəniyyət evlərindəki musiqi ifaçılığı və bədii sənətkarlıq dərnəkləri inkişaf etdirilmişdir. Tez-tez musiqi ifaçılarının zona baxış müsabiqələri keçirilərək, qaliblər final yarışmalarında birincilik uğrunda mübarizə aparmış və xalğımızın mədəni inkişafında uğurlar qazanılmışdır.

Baxış müsabiqələrin keçirilməsində Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və xüsusən də Mədəniyyət üzrə Muxtar Respublika Elmi-Metodik Mərtkəz lazımi köməklik göstərmişlər.

Hər il Muxtar Respublika Əmək və Əhalinin Sosial Müdafiə Mərkəzi ilə Müstəqil Rəssamlar Təşkilatı tərəfindən B. Kəngərli adına Rəssamlıq Sərgi Salonunda sağlamlıq imkanları məhdud olan həvəskar əlil rəssamların əsərlərindən ibarət satış sərgiləri açılır. Belə xeyirxah tədbirlər əlil sənətkarlara dövlət tərəfindən diqqət və qayğı kimi qiymətləndirilir.

Mart ayının 12-də Şərur şəhərindəki mədəniyyət Evində və sonra isə Naxçıvan şəhərindəki Uşaq Teatrının səhnəsində, sağlamlıq imkanları məhdud ifaçıların geniş proqramda konserti olmuşdur.

Konsertin açılışı xalq çalğı alətləri ansamlının ifasında “Çahargah” rəngi, tamaşaçıların alqışları ilə qarşılanmışdır. Ansamblın musiqiçiləri tarda birinci qrup əlil Sənan Salmanov, ikinci qrup əlillərdən zərb alətində İlqar Məmmədov, qarmonda Mirismayıl Seyidov, balabanda isə Kamil Səfərov, 18 yaşınadək sağlamlıq imkanı məhdud əlil Bənövşə Salmanova kanonda, fortepianoda Günel Baxşəliyeva və sintezatorda isə Elnur Rəhimov müşayətçi kimi ifaçılıq qabiliyyətlərini göstərmişlər.

Konsertə bədii rəhbər əməkdar incəsənət xadimi Rəfael Kərimov və aparıcı isə Naxçınan Dövlət Universitetinin tələbəsi Xəyalə Məmmədli olmuşlar. Proqramında Ə. Tağıyevin "Sən-sən" və Ş. Axundovanın "Nədən oldu" mahnılarını ikinci qrup əlil Məmməd Əhmədov, A. Məlikovun "Gör nə gözəldir" mahnısını ikinci qrup əlil Abdulla Quliyev, Ş. Kərimovun "Gecələr", E. İbrahimovanın "Gecələr bulaq başı" və P. Bülbüloğlunun "Gəl ey səhər" mahnılarını ikinci qrup əlil Rasim Seyidovun ifaları tamaşaçıların alqışlarına səbəb olmuşdur.

Bundan başqa əlil Bənövşə Salmanovanın kanonda ifa etdiyi İ.Bramsın "Macar rəqsi", ikinci qrup əlil Mirismayıl Seyidovun qarmonda ifa etdiyi "İrəvanda xal qalmadı" xalq mahnısı və eyni vaxtda tütək və zurna nəfəsli alətlərində ikinci qrup əlil Kamil Səfərovun ifa etdiyi "Azərbaycan xalq melodiyaları" da musiqisevərlərin rəğbətinə səbəb yaratdı.

Konsertdə birinci qrup əlillərdən Sənan Salmanovun tarda ifa etdiyi "Zabul segahı", xanəndə Qubad Sayılovun "Zəminxarə" təsnifi ilə Zöhrab İsmayılovun oxuduqları "Şur" təsnifləri və habelə Zəka Sadiqovun ifasında M.Cavadovun "Naxçıvan" mahnısı da tamaşaçı alqışlarına səbəb olmuşdur.

Naxçıvan şəhərindəki konsertdən sonra Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbov, sağlamlıq imkanları məhdud olan ifaçıların çıxışlarından razı qalmış və onlarla səhnə arxasında görüşüb demişdir:-"Sizin uğurlu çıxışınız Muxtar Respublikada yeni bir özfəaliyyət ansambılının yaradıldığını deməyə imkan verir. Bu gün Muxtar Respublikada 18 min nəfərə yaxın müxtəlif dərəcəli sağlamlığını itirmiş insanlar var. Onlara dövlətimiz tərəfindən hərtərəfli qayğı və diqqət göstərilir... Hər kəsin öz qabiliyyətini, istedadını, nümayiş etdirə bilməsi üçün müxtəlif tədbirlər təşkil edilir, idman yarışları, əl işlərindən ibarət sərgilər, bədii yaradıcılıq baxış-müsabiqələri keçirilir.

Musiqiçilər özfəaliyyət ansambıllarında, əl işləri ilə məşğul olanlar sərgilərdə, idmanla məşğul olanlar ayrı-ayrı yarışlarda və digər tədbirlərdə öz istedad və qabiliyyətlərini göstərə bilirlər.

Sağlamlıq imkanları məhdud olan insanlar cəmiyyətimizin bərabərhüquqlu üzvləridir."

Sonra konsertin əlil ifaçılarına Muxtar Respublika Ali Məclisi sədri tərəfindən musiqi mədəniyyətində fəal iştirak etdiklərinə görə maddi yardım edilmişdir.

Feyruz Bağırov

Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi, Elmi-Metodik Mərkəzin şöbə müdiri.

Az.7000. Naxçıvan şəhəri, H. Əliyev prospekti, № 1.

Telefon: 45-02-52 ; 45-02-57.

Müəllifin veb saytı: www.nuhyurdu.com

E-mail ünvanı: info@nuhyurdu.com